# Aprel döyüşlərinin elektron salnaməsi

**Milli Kitabxananın əməkdaşları tərəfindən "Aprel döyüşləri" adlı elektron məlumat bazası kitabxananın saytı vasitəsilə oxuculara təqdim olunub. Bu barədə XQ-yə Axundov adına Milli Kitabxananın Elmi, Biblioqrafik və Elektron İnformasiya Xidmətləri şöbəsinin müdiri Könül Kərimova məlumat verib. O bildirib ki, məlumat bazası bir neçə bölmədən ibarətdir.**

"İlk bölmə "Rəsmi sənədlər" adlanır. Burada Aprel döyüşləri ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar yer alıb. İkinci bölmə "Dördgünlük müharibə" adlanır.

"Aprel şəhidləri" bölməsində döyüşlərdə canlarını fəda etmiş şəhidlərin ad, soyad və ata adları göstərilir. "Aprel döyüşlərinin xatirəsi" bölməsində döyüş iştirakçılarına verilmiş fəxri adlar, Horadiz şəhərində ucaldılmış Aprel şəhidlərinə xatirə abidəsi, "Aprel döyüşləri – 2016. Lələtəpə" adlı poçt markaları, "Şəhidlər unudulmur" layihəsi çərçivəsində 72 nömrəli məktəb-liseyin sinif otaqlarına Aprel şəhidlərinin adlarının verilməsi və başqa məlumatlar təqdim edilir.

Foto və videoqalereya bölməsində Aprel döyüşləri zamanı çəkilən foto və video materiallar toplanmışdır.

Qeyd edək ki, elektron məlumat bazası ilə kitabxananın rəsmi səhifəsində "E-Kataloq" bölməsinə keçid edərək, tanış olmaq mümkündür.

***Fidan SALMANOVA,***
***Elşən AĞALAROV (foto)***
***XQ***




Xalq qəzeti .- 2025.- 4 aprel (№64).- S.12.